*İnsanı inam yaşadır. Bu inam torpağa, Vətənə görədirsə, çox möhtəşəm olur. Bəlkə də ahərrüba kimi yaşantıları özünə çəkir.*

Ovqat

# Cocuq Mərcanlının işıqları yanacaq

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğal olunmuşdu. Qısa müddətdən sonra ordu hissələrimiz kəndi azad etdilər. Camaat bu qələbədən sevindi. Doğma evlərinə qədərsiz sevinclə, qədərsiz istəklərlə qayıtdı. Ancaq... kənddə evlərin damlarının, qapı-pəncərələrinin sökülməsi onları varından yox elədi - ürəkləri göynədi. Düşmən kəndi acınacaqlı vəziyyətə salmışdı, kənddə yaşamaq mümkün deyildi. Camaat kəndə qayıtsaydı, Lələtəpədə mövqe tutmuş düşmən onlara rahatlıq verməzdi. Evlər bu günə düşməsəydi, nə qorxu, nə ehtimal olunan həmlələr onları qorxutmazdı...

Burada döyüş növbəsində olanlar da, bura gələnlər-görənlər də, erməniliyin əlamətlərinə yanıb-yaxılırdı. Ağsaqqallar, yaşlılar təəssüflə pıçıldayırdı: "Gec elər, güc elər". Əsgərlərin əlləri avtomatların qundağını sıxırdı: "Torpaqlarımızı işğaldan azad edəcəyik. Bu kənd də əvvəlki görkəminə düşəcək, camaat doğma yurdunun ocağını yenidən alışdıracaq..."...



Apreldə erməni hərbi birləşmələrinin irimiqyaslı təxribatlarının qarşısını alan hərbi birləşmələrimiz əsgərlərin düşüncələrinin gerçəkləşəcəyinin təsdiqidi, şübhəsiz. Lələtəpə yüksəkliyinin düşməndən təmizlənməsi xalqın inamını dönməzləşdirdi. Aprelədən bu kənd də düşmənin nəzarətindəydi, atəşkəsi pozmaqla bu kənddə döyüş növbəsi aparan əsgərlərimizi də gərginlikdə saxlayırdı. Cocuq Mərcanlılar da Lələtəpənin ermənisizləşdirilməsini kəndə dönüşün inam işığı bildilər...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı camaatın intizarına son qoydu. Kənddə abadlıq işləri aparılacaq, evlər təmir ediləcək, evlərin daşı-divarı əzizlərinin əllərinin təmasıyla isinəcək, kənd yenə əvvəlki qaynarlığına qayıdacaq. Evindən-eşiyindən perik düşənlərin sevincini təsəvvür etmək çətin deyil.

O qayıdış üçün ayları deyil, günləri də sayacaqlar. Cocuq Mərcanlıya aparan yolun insan yükü artacaq. Kəndin ot basmış izlərinə yeni izlər düşəcək: kənddə yeni sevdalar cücərəcək; kəndin qırışığı açılacaq.

Həmin fərman hələlik Cocuq Mərcanlıya aiddi. Yaxın vaxtlarda bu mahiyyətli fərman işğaldan azad olunmuş rayonlarımıza şamil ediləcək. Bu fərman intizarımızın sonu olacaq. Şəhidlərimizin ruhu narahatlıqdan qurtaracaq, Azərbaycan əsgərinin qətiyyəti bir mətləbin təsdiqi olacaq: bu torpaqlarda bir daha yad yellər əsməyəcək!

Bu fərman Cocuq Mərcanlıya aparan yolun Şuşaya, Xankəndinə, işğal olunmuş digər torpaqlarımıza aparacağına inamın təzahürüdü...

Bu günlərdə Mədəniyyət kanalında bir sənədli filmə baxırdım. Çağdaş jurnalistikamızın öncül ustadlarından olan professor Cahangir Məmmədlinin ömür yolunu işıqlandırırdı; müəllimimiz qədərsiz kədərlə işğalda olan kəndləri səmtə baxırdı. Onun da həsrətinin çiliklənməsinə az qalıb...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu fərmanı Cocuq Mərcanlıların timsalında məmləkətimizi bir inamın işığında cəmləşdirir: torpaqlarımız işğaldan azad ediləcək, müharibənin təzahürləri aradan qaldırılacaq...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**